

■ Səxavət Sahil



# Yeninəfəsli "Ağ buludlar"

**"Ağ buludlar" romanı yazıçı Mübariz Örənin yaradıcılıq yolunda yeni mərhələ, yeni başlanğıcdır. Bundan əvvəl onun "Qar tanrısı" povesti müəllifin ədəbi axtarışlarının nəticəsi olaraq ortaya çıxmışdı. Lakin son əsər onun öz yolunu artıq müəyyənləşdirdiyindən xəbər verir.**

Roman çoxqatlı və çox şaxəlidir buna görə də əsərə bir neçə istiqamətdən yanaşmaq olar. "Ağ buludlar" mənə ədəbiyyat okeanında üzən aysberqi xatırladır. Əsərin mənasını anlamaq, mahiyyətini dərk etmək üçün aysberqin görünməyən tərəfinə baxmaq gərəkdir.

### ROMANIN STRUKTURU

"Ağ buludlar"da qurulan mürəkkəb struktur əsərin gücünü artırır, onun dil və təhkiyədən asılı olmadığını göstərir. Təsadüfi deyil ki, romanın başdan-ayağa oxunaqlı, əhatəli olmasında, həmçinin oxucunun heyrətlənməsində strukturun, formanın böyük əhəmiyyəti var. Struktur romanda əsas məsələdir, romanın "bədəni" məhz strukturun "ayaqları" üstündə durur. Mübariz Örən romanda məhz bu elementə üstünlük verib və şüurlu şəkildə strukturu ciddi və miqyaslı şəkildə, uğurla qura bilib.

"Ağ buludlar" modern texnika ilə yazılıb. Elə bil ki, bu roman fəzaya buraxılan və ən son elmi-texniki vasitələrlə təmin olunan kosmik gəmidir. Əsərin strukturu o qədər ustalıqla və maharətlə qurulub ki, romanın içində antik süjetlər mətnin siriliyinə xidmət edir. Hesab edirəm ki, son dövrlər mifik süjetlərdən yetərincə istifadə olunsa da, o qədər də uğurlu nəticələr alınmayıb. Lakin "Ağ buludlar" peşəkarlıqla yazıldığından bu cür problemlərə rast gəlinmir.

### TƏHKİYƏ VƏ ÜSLUB BİRLİYİ

Mübariz Örənin özünəməxsus üslubu var. Onun üslubunu hansısa məşhur yazıçının üslubuna bənzədənlər hesab edirəm ki, yanılırlar. Unutmaq lazım deyil ki, Mübariz Örənin üslubunun ortaya gəlməsində rol oynayan elementlər tamam fərqli və yenidir. Məsələn, yazıçıların öz əsərlərində hansısa kiçik bir hadisəni nəqletmə formaları var. Altmışıncı və səksəninci illərə məxsus yazarların əksəriyyətində bu nəqletmə demək olar ki, eynidir. Lakin Mübariz Örən bunu tamam başqa formada eləyir. Daha bir fakt. Yuxarıda adını çəkdiyim ədəbi nəslin yazıçıları əsərlərində keçidləri (hadisədən hadisəyə) demək olar ki, hamısı eyni qayda ilə yazıb. Çünki məcbur olub əvvəlki süjeti xatırlayırsan, hətta süjetlər arasında təxəyyülünü işə salaraq bağlılıq axtarmalı olursan. Lakin "Ağ buludlar"ın müəllifi bunu elə ustalıqla eləyir ki, keçidlər gözə görünmür, hiss olunmur. Onu da unutmaq lazım deyil ki, köhnə üslubda təzə söz demək olar və bunu Mübariz Örən yaradıcılığının birinci mərhələsində ortaya qoyduğu hekayələrlə sübut edib. Onun qısa müddətdə populyarlıq qazanmasında fərqli tərzdə olan üslubunun böyük rolu var. Məlum məsələdir ki, üslub yazarın vizit kartıdır.

Romanda sözlər dəqiqliklə seçilib. Əsəri oxuyanda sözlərin bir-birinin yanında necə uyuşaraq durduğunu, bir-birinə nə qədər bağlı olduğunu, bir-birinə sığındığını aydın görürsən.





Cümlə isə "Ağ buludlar"da aramla axan Nil çayını xatırladır. Nəyə görə Nil çayı, çünki, Nil axarı ifadəsi əbədiliyin, gözəlliyin, təmkinin, qürurun rəmzinə çevrilib. Sözlər cümləni əmələ gətirdiyi kimi, cümlə də mətni yaradır. "Ağ buludlar"ın elə hissləri var ki, bütöv bir süjeti bir cümlə kimi oxuya bilərsən. Deməli, müəllif sözü cümləyə, cümləni mətnə ustalıqla çevirə bilib ki, bunu hiss eləmirsən.

Romandakı təhkiyəni, xüsusən, qeyd etmək lazımdır. Adətən, deyirlər ki, hər bir əsərin forma və məzmununa görə özünün təhkiyəsi var. Və məşhur yazıçıların əsərdən əsərə təhkiyəsinin dəyişdiyinin də şahidi olmuşuq. Lakin "Ağ buludlar" müəllifin üslubuna sadiq qalaraq yazdığı romandır.

Romanda üslubu qorumaq olduqca çətindir. Bunu öhdəsindən hər yazıçı gələ bilmir və onunla izah edir ki, böyük əsərlərdə üslub o qədər də vacib deyil. Mübariz Örən isə üslubu saxlamaqla "Ağ buludlar" kimi ciddi əsər yarada bilib.

### ANTİK SÜJETLƏRLƏ DİALOQ - "ÇAR EDİP"

"Ağ buludlar" həm də antik süjetlərlə dialoqda təmasda olan bir romandı. Əsərdə romanın "dişinə gələn" bir neçə mifik süjet var. Əsas forma "Çar Edip" olsa da digər qədim mətnlərə göndərmələr, səsləşmələr var. Düşünürəm ki, bu gün dünyada olan ciddi və əsaslı mətnlərin hər birində qədim mətnlərlə bağlılıq var. Bəzən bunu hiss eləməsək də bu bağlılıq vasitəsi ilə indiki mətnləri zaman-zaman qidalandırır.

Elə süjetlər var onlar yaşadığımız dünyanın özü kimi dəyişməzdir. "Çar Edip" süjeti hər kəsə məlumdur. Bu günə qədər Esxildən tutmuş müasirimiz olan məşhur yazarlara qədər bu süjetdən istifadə edərək şedevr əsərlər yazıblar.

İnsan dəyişmədiyi kimi süjet də dəyişmir. İnsanın əməlləri, günahları bu dəyişməzlər sırasındadır. Günah varsa onun cəzası var, günahın yuyulması var. Dünyada hər şey nizamlandığı kimi günahın da öz "qaydaları" var. Günah baş verirsə gözəgörünməzlər günahkarı cəzalandırır. Cəzadan qaçmaq mümkün deyil. Günahkarın cəzasına çatması həm də süjetin başa çatması deməkdir. Günahkar günahını yuyur və hər şey öz axarına düşür. Bu sistem bütün əzəli süjetlərin mayasını təşkil edir.

"Çar Edip" məsələsi "Ağ buludlar" romanı ilə təkcə süjet kimi deyil həm də struktur baxımından eynilik təşkil edir. Burada hadisələrin inkişafı və qurulan hər bir kiçik süjet də, "Çar Edip"in elementləri ilə uyuşur.

* * *

İlk oxucusu olduğum "Ağ buludlar" romanının müasir Azərbaycan prozasında yeni səhifə açacağına inanıram. Əsərin məzmunu, quruluşu, müasirliyi və təməl əsrləri ilə səsləşməsi bunu deməyə əsas verir.

Mübariz Örənin "Ağ buludlar"ını dünya ədəbiyyatında olan böyük əsərlərlə müqayisə etmək olar və buna kifayət qədər əsas var.